## Zakir Həsənov Türkiyənin Milli Müdafiə Universitetini ziyarət edib



**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyədə işgüzar səfəri çərçivəsində qardaş ölkənin Milli Müdafiə Universitetini ziyarət edib.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, general-polkovnik Z.Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar və digər dövlətlərdən olan həmkarları ilə birgə universitetin "Şərəf kitabı"nı imzalayıb. Sonra qonaqlara Zəfər Bayramının 100-cü ildönümü münasibətilə təşkil olunan konsert proqramı təqdim edilib.



## Türkiyənin səhiyyə naziri koronavirusa yoluxub

**Türkiyənin səhiyyə naziri Fahrettin Koca koronavirusa yoluxub.**

O, bu barədə "Twitter" hesabında məlumat paylaşıb. Nazir qeyd edib ki, COVID-19 testinin nəticəsi beş gün əvvəl müsbət çıxıb. F. Koca sağalana qədər işlərinə evdən davam edəcəyini bildirib.


№ 156 (5678), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 1 sentyabr 2022-ci il (cümə axşamı)




## Çağırışçıların hərbi qeydiyyatının aparılması qaydası dəyişib

**Nazirlər Kabineti "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası"nda dəyişiklik edib.**

Qərara əsasən, çağırışçılar və hərbi vəzifəlilər həqiqi hərbi xidmətə çağırıldıqda və ya könüllü daxil olduqda hərbi qeydiyyatdan çıxarılaraq xidmət etdiyi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətində, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətində, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyində xüsusi qeydiyyata alınacaqlar.

Ləğv edilmiş Xüsusi Dövlət Mühafizə Xidməti isə siyahıdan çıxarılıb.

Beləliklə, son dəyişiklikdən sonra çağırışçılar və hərbi vəzifəlilər həqiqi hərbi xidmətə çağırıldıqda və ya könüllü daxil olduqda hərbi qeydiyyatdan çıxarılaraq xidmət etdiyi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətində, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətində, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyində, Azərbaycan Respublikasının Müdafiə Nazirliyində, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyində, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətində və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətində və Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətində xüsusi qeydiyyata alınacaqlar.

# Sülh müqaviləsi üzərində işləməyin vaxtı çatdı

## Brüssel müzakirələri tərəfləri normallaşma prosesinə bir az da yaxınlaşdırdı



**Dünən Belçika Krallığının paytaxtı Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş keçirilib. Liderlər Şarl Mişelin təşəbbüsü və iştirakı ilə Brüsseldə 4-cü dəfə bir araya gəliblər.**

3-cü görüş 22 may 2022-ci ildə keçirilib. Həmin görüşdə bir sıra ciddi razılıqlar əldə edilsə də, icrası baş tutmayıb. Üstəlik, Ermənistanın təxribatçı hərəkətləri ucbatından silahlı qarşıdurma da yaşanıb.

"Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri, politoloq Samir Hümbətov görüşdən müəyyən gözləntilərin olduğunu bildirib. Ekspert deyib ki, 3 avqustda Azərbaycan əsgərinin düşmənlər tərəfindən şəhid edilməsi ilə başlayan "Qisas" əməliyyatı öz bəhrəsini verdi: "Eyni zamanda 10 noyabr 2020-ci il üçtərəfli bəyannaməinin şərtlərindən irəli gələrək inşası tamamlanmış 32 km-lik yeni alternativ yol istifadəyə verildi.

(səh.2)



## "Əhalini uzunmüddətli davamlı sülhə hazırlamaq vacibdir"

### Şarl Mişel: "Noyabrın sonuna qədər bu formatda yenidən görüşməyə razılaşdıq"

**"Əhalini uzunmüddətli davamlı sülhə hazırlamaq vacibdir".**

Bunu Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan ilə üçtərəfli görüşündən sonra mətbuata bəyanatında bildirib.

"Aİ uzunmüddətli davamlı sülhə doğru dəstəyini daha da gücləndirməyə hazırdır. Aİ həm də hər iki ölkənin və onların əhalisinin rifahı naminə iqtisadi inkişafın irəliləyişinə təkan verməyə davam edəcək", - Mişel qeyd edib.

Şarl Mişel bildirib ki, noyabrın sonuna qədər bu formatda yenidən görüşün keçirilməsinə razılaşıblar:

"Biz nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası üsulları ilə bağlı müzakirələrin gedişatını nəzərdən keçirdik", - o deyib.

## Hikmət Hacıyev: "Biz Şarl Mişelin rolunu yüksək qiymətləndiririk"



**"Biz Avropa İttifaqının Prezidenti Şarl Mişelin rolunu yüksək qiymətləndiririk".**

Bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tvitterdə qeyd edib.

"Biz Avropa İttifaqının Prezidenti Şarl Mişelin komandasının Ermənistan və Azərbaycan arasında ikitərəfli sülh müqaviləsi danışıqlarına və dövlətlərarası normallaşmaya kömək etmək etməsini yüksək qiymətləndiririk. Prezident İlham Əliyev bununla bağlı Azərbaycanın mövqeyini dəfələrlə bəyan edib", - Prezidentin köməkçisi bildirib.

# Ən etibarlı dostumuz

## Minaaxtaran itlər də erməni vəhşiliyinin qurbanına çevrilir



**İstənilən lokal və genişmiqyaslı müharibələrin başa çatmasından sonra həmin ərazinin ən böyük problemlərindən biri minalar və partlamamış sursatlardır.**

Ümumiyyətlə, mina problemi dünyada ciddi qlobal təhlükə sayılır. Müharibəyə və işğala məruz qalmış bir sıra ölkələr, o cümlədən Azərbaycan da bu prosesdən əziyyət çəkir. Ermənistan 30 illik işğal dövründə və müharibə zamanı işğal olunmuş ərazilərimizi total şəkildə minalayıb.

(səh.2)

## Tarif Şurası 48 dərman vasitəsinin qiymətini təsdiqləyib



**Tarif (qiymət) Şurasının 31 avqust tarixində keçirilən növbəti iclasında yeni dövlət qeydiyyatına alınan 48 dərman vasitəsinin qiyməti də təsdiq edilib.**

Bu barədə "Şərq"ə Tarif (qiymət) Şurasının Katibliyindən bildirilib.

Bununla da, ticarət adı, farmasevtik forması, təsiredici maddəsinin adı, dozası, ticarət qablaşdırması, miqdarı, istehsal ölkəsi nəzərə alınmaqla, indiyədək qiymətləri təsdiq edilmiş dərman vasitələrinin sayı 13347 təşkil edir və onların tam siyahısı Tarif (qiymət) Şurasının rəsmi internet saytının (www.tariff.gov.az) "Dərman vasitələri" bölməsində (http://tariff.gov.az/documents/DVA.pdf) yerləşdirilib.

Qərarlarla Tarif (qiymət) Şurasının rəsmi saytının (www.tariff.gov.az) "Şuranın qərarları" bölməsində tanış olmaq olar.

## Ölən yoxdur

### 621 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 621 yeni yoluxma faktı qeydə alınıb, 648 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxanlar arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 813 437 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 800 127 nəfər müalicə olunaraq sağalıb, 9 805 nəfər vəfat edib, aktiv xəstə sayı 3 505 nəfərdir.

*Ölkədə son sutka ərzində 4 032, hazırkı dövrədək isə 7 155 246 test aparılıb.*

## Bakıda son günlər rotavirus infeksiyası yayılıb

### Əsas klinik əlamətləri güclü qarın ağrıları, qusma və ishaldır



**Bakıda son günlərdə rotavirus infeksiyası yayılıb.**

Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, qastroenteroloq Emin Məmmədov "Mədə xəstəlikləri" mövzusunda danışarkən deyib.

O bildirib ki, bu infeksiyanın əsas klinik əlamətləri güclü qarın ağrıları, qusma və ishaldır: "Həmin şəxslər antibiotik terapiyadan uzaq durmalıdırlar. Çoxlu maye qəbul etməli, süd məhsulları və kofeindən uzaq olmalıdırlar. Müşahidələr göstərir ki, bu xəstəliyə tutulanlar bir həftə müddətində sağalır".



## Avrasiya İqtisadi İttifaqına şərtlə qatılmaq olar

### Bunun üçün Rusiya üzərinə götürdüyü öhdəlikləri tamamilə yerinə yetirməlidir

(səh.3)

## "Kəramət Natiq Rəsulzadədən daha artıq xalq yazıçısıdır"

Şahbaz Xuduoğlu: "Xalq yazıçısı sosial şəbəkələrin insanların həyatına necə nüfuz etdiyini görmürsə, deməli, o, zülmətdədir"

(səh.4)





# Sülh müqaviləsi üzərində işləməyin vaxtı çatdı

## Brüssel müzakirələri tərəfləri normallaşma prosesinə bir az da yaxınlaşdırdı

**Dünən Belçika Krallığının paytaxtı Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş keçirilib. Liderlər Şarl Mişelin təşəbbüsü və iştirakı ilə Brüsseldə 4-cü dəfə bir araya gəliblər.**

3-cü görüş 22 may 2022-ci ildə keçirilib. Həmin görüşdə bir sıra ciddi razılıqlar əldə edilsə də, icrası baş tutmayıb. Üstəlik, Ermənistanın təxribatçı hərəkətləri ucbatından silahlı qarşıdurma da yaşanıb.

**”Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları” Mərkəzinin sədri, politoloq Samir Hümbətov görüşdən müəyyən gözləntilərin olduğunu bildirib. Ekspert deyib ki, 3 avqustda Azərbaycan əsgərinin düşmənlər tərəfindən şəhid edilməsi ilə başlayan ”Qisas” əməliyyatı öz bəhrəsini verdi:** ”Eyni zamanda 10 noyabr 2020-ci il üçtərəfli bəyannamənin şərtlərindən irəli gələrək inşası tamamlanmış 32 km-lik yeni alternativ yol istifadəyə verildi. 26 avqust 2022-ci ildə Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti dislokasiya edilmiş Rusiya hərbiçilərinin də iştirakı ilə Laçın şəhərində, Zabux və Sus kəndlərində qalan ermənilər oradan çıxarıldı. Həmin ərazilər Azərbaycanın nəzarətinə verildi. Avqustun 30-da Azərbaycan baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan baş nazirinin müavini Mqer Qriqoryan arasında Azərbaycan-Ermənistan dövlət sərhədlərinin delimitasiyası üzrə Moskvada görüş keçirildi. Görüşlə bağlı tərəflərdən hansısa xüsusi açıqlama gəlməsə də, Rusiya XİN başçısı Sergey Lavrov açıqlama verərək bildirdi ki, ”Rusiya, Azərbaycan, Ermənistan Üçtərəfli İşçi Qrupu razılaşmaların əldə olunmasında mühüm irəliləyiş əldə edib”. Bu isə o deməkdir ki, tərəflər arasında bəzi məsələlərdə razılaşmaya meyillər hiss edilməkdədir. Hətta verilən məlumata əsasən tərəflərin, yəni Azərbaycan baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan baş nazirinin müavini Mqer Qriqoryan arasında növbəti görüş Brüsseldə baş tutacaq və burada Rusiya iştirak etməyəcək. Deməli, tərəflər məsələ üzərində bir də Rusiyasız işləmək qərarı alıblar”.

**S.Hümbətov vurğulayıb ki, önəmli məsələlərdən biri də tərəflər arasında kommunikasiyaların açılmasıdır:** ”Bu məsələ də Azərbaycan və Ermənistan rəhbərləri arasında müzakirə predmetinə çevrilə bilər. Brüssel görüşündə müzakirə edilmiş məsələlərin çoxluğunu, vacibliyini nəzərə alsaq, məsələ ilə bağlı nikbinliyimizi ifadə edə bilərik. Ən azından ona görə ki, görüşün təşkilatçısı və iştirakçısı olan Avropa İttifaqı tərəflərin nəticə əldə etməsində maraqlıdır. Burada diqqətçəkən digər önəmli məsələ rəsmi Bakının həmləsi və Avropa İttifaqının təzyiqləridir. Ona görə də gözləntilərimizi belə sıralamaq olar. Sərhədlərin delimitasiyası, Zəngəzur dəhlizinin açılması, kommunikasiyaların qurulması, I və II Qarabağ savaşından qalan hərbi və mülki əsirlərimizin taleyinə aydınlıq gətirilməsi, minaların xəritələrinin verilməsi və erməni terrorçu dəstələrinin Azərbaycanın Qarabağ bölgəsindən çıxarılması. Bundan sonra sülh müqaviləsi üzərində işləmək olar. Bu amillərin müzakirəsi münaqişənin yekun həllinə imkan yarada bilər. Əlbəttə, qonşu və region dövlətlərinin Ermənistana pərdəarxası təzyiqləri baş verməzsə”.

**İsmayıl**



# Ən etibarlı dostumuz

## Minaaxtaran itlər də erməni vəhşiliyinin qurbanına çevrilir

**İstənilən lokal və genişmiqyaslı müharibələrin başa çatmasından sonra həmin ərazinin ən böyük problemlərindən biri minalar və partlamamış sursatlardır. Ümumiyyətlə, mina problemi dünyada ciddi qlobal təhlükə sayılır. Müharibəyə və işğala məruz qalmış bir sıra ölkələr, o cümlədən Azərbaycan da bu prosesdən əziyyət çəkir.**

Ermənistan 30 illik işğal dövründə və müharibə zamanı işğal olunmuş ərazilərimizi total şəkildə minalayıb. 44 günlük Vətən müharibəsinin başa çatmasına baxmayaraq minalanmış ərazilərin xəritələrini təqdim etməkdən imtina edir. Bir neçə dəfə Azərbaycana təqdim edilmiş xəritələrin isə sadəcə 15-20 faizi özünü doğruldub. Yəni Ermənistan qəsdən və qərəzli şəkildə növbəti hərbi cinayətlərini davam etdirir. Ərazilərimizin minalardan təmizlənmə işi çox vaxt aparır, düşməndən təmizlənmiş torpaqlarımız qarış-qarış axtarılır. Şübhəsiz, bu işlər başa çatmadan, köçkün və qaçqın soydaşlarımızı doğma yurdlarına daha tez zamanda qaytarmaq mümkün olmur. Çünki insan amili, əhalinin təhlükəsizliyinin təmin olunması dövlətimizin ən başlıca prioritetidir. Nəzərə alaq ki, işğaldan azad olunmuş ərazilərdə yeganə problem mina da deyil. Bundan başqa orada minlərlə partlamayan sursatlar, qurulan partlayıcı tələlər var. Kustar üsulla hazırlanmış partlayıcı vasitələrin də sayı-hesabı yoxdur. Təxminlərə görə, Qarabağda 1 milyona yaxın partlayıcı qurğu var. İşğal zamanı dağıdılmış ərazilərin də minalarla çirkləndiyi və bu yerlərin də təhlükəli ərazilər sayıldığı vurğulanır.

Bütün çətinliklərə rəğmən, Azərbaycan dövləti imkanlarını maksimum səfərbər edərək 30 il işğalda qalmış torpaqlarımızın minalardan təmizlənməsini sürətlə həyata keçirməkdədir. Statistik məlumatlara əsasən, indiyədək ümumilikdə 49 min 395,3 hektar ərazi minalardan təmizlənib, minalar və partlamamış hərbi sursatlar aşkar edilərək zərərsizləşdirilib. Əfsuslar olsun ki, minaların partlaması nəticəsində 240 mülki və hərbçi həlak olub və ya yaralanıb. Minatəmizləmə işləri prioritet olaraq nəqliyyat yollarında, mühüm infrastruktur binalarında, əsas rayon və kəndlərdə aparılır. Qeyd etmək lazımdır ki, Qarabağda minatəmizləmə həm hərbi təyinatlı, həm də humanitar təyinatlı həyata keçirilir. Hərbi təyinatlı mina təmizləmə prosesləri Müdafiə Nazirliyinin mühəndis istehkam bölmələri tərəfindən aparılır. Humanitar təyinatlı mina təmizləmə işləri isə Azərbaycanda son zamanlar yaradılan Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən icra olunmaqdadır. Ötən illər ərzində Agentliyin fəaliyyət istiqaməti, maddi-texniki bazası beynəlxalq səviyyəyə çatdırılıb. ANAMA-nın fəaliyyəti ilə yanaşı, Silahlı Qüvvələrin digər qoşun növləri - Dövlət Sərhəd Xidmətinin hərbi təyinatlıları da minatəmizləmə işlərinə cəlb olunub.

Təhlükəli minatəmizləmə əməliyyatlarında insanların ən yaxın və etibarlı yardımçısı xüsusi təlim keçmiş minaaxtaran itlərdir. Marşal İrsi İnstitutu ilə ANAMA arasında imzalanmış Anlaşma Memorandumu çərçivəsində ümumilikdə 30 baş minaaxtaran itdən 25-i artıq Agentliyə təhvil verilib. Qalan 5 baş itin 2023-cü ilin ilk yarım illiyinədək göndərilməsi nəzərdə tutulub. Azərbaycana göndərilən minaaxtaran itlərin əvvəlcə öz bələdçiləri ilə uyğunlaşma təlimi keçirilir, daha sonra itlər əməliyyatlara cəlb olunurlar. Yəni minaaxtaranların dördayaqlı yardımçıları işğaldan azad edilmiş ərazilərin təmizlənməsində fəal iştirak edərək, ”Böyük Qayıdış”ın reallaşdırılması istiqamətində öz töhfələrini verirlər. Avqustun 30-da Qubadlı rayonu ərazisində piyada əleyhinə minanın partlaması hadisəsi minaaxtaran itlərin fədakarlığını sübuta yetirdi. Əməliyyata cəlb olunmuş ”Dina” ləqəbli Belçika malinuası (minaaxtaran it) partlamamış qurğunu qabaqcadan müəyyən edərək önə atılıb və minanı partlatmaqla zərərsizləşdirib. Hadisə nəticəsində minaaxtaran it ölüb. Belə demək mümkündürsə, ”Dina” öz həyatını fəda edərək, uzun müddət birgə zaman keçirtdiyi bələdçisini real ölümdən və ya ağır yaralanma riskindən xilas edib. Məhz ”Dina”nın fədakarlığı nəticəsində bələdçi - 1984-cü il təvəllüdlü Nəcməddin Hüseynov yüngül bədən xəsarətləri alıb. Məlumat üçün bildirək ki, işğaldan azad olunmuş ərazilərdə aparılan axtarışlar zamanı belə hal ilk dəfə baş verib.

Bir məqamı da diqqətə çatdıraq ki, xüsusi təlim keçmiş itlərdən minaaxtarma işində yüz ilə yaxındır istifadə olunur. İtlərin iybilmə xüsusiyyətləri insanlarla müqayisədə xeyli çoxdur. Bu baxımdan mina axtarışlarında itlərin rolu böyükdür. Xidməti itlərin fəaliyyətinə hava şəraiti təsir etdiyi üçün onlar 20 dəqiqədən bir dəyişdirilərək axtarışa cəlb edilirlər. Bir itlə gün ərzində fasilələrlə 1000 kv. metrə yaxın ərazini təmizləmək olur. Mina axtarışlarında alman, belçika çoban itlərindən və labrador cinsindən istifadə edilir və 8 aylıq təlimlərdən keçirlər. Daha əvvəl əməliyyatlarda iştirak edən itlərin balaları isə gələcək üçün hazırlanır.

Son olaraq təəssüflə vurğulayaq ki, uzun müddət Azərbaycan xalqı ilə birgə yaşamış, tərəfimizdən daim yaxşılıq və mərhəmət görmüş erməni toplumu heç vaxt bizə qarşı düşmənçiliyindən, qərəzli yanaşmasından, kin-küdurətindən əl çəkməyib. Müharibədən sonra mina xəritələrinin verilməməsi, üstəlik, torpaqlarımızı tərk edərkən əlavə partlayıcı qurğuların basdırılması bunun bariz isbatıdır. Təsəvvür edin, bir tərəfdə yırtıcı heyvandan daha vəhşi xüsusiyyətlərə malik olan vandal bir topluluqla üz-üzəyik. Digər yanda isə dördayaqlı dostumuzun həyatını fəda edərək öz bələdçisini ölümdən xilas etməsinə şahidlik edirik... Sizcə, hansı mənzərə daha ağrılıdır?!

**İsmayıl Qocayev**

# Zəngilan hava limanı 1 saatda 200 sərnişin qəbul edəcək

## Bu, bölgənin inkişafı və təhlükəsizli yinin gücləndirilməsi baxımından vacib layihələrdən hesab olunur



**“Zəngilan Hava Limanında ilk test uçuş həyata keçirilib”. Bu barədə millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, Şərqi Zəngəzurda müasir standartlara uyğun inşa edilən hava limanı bütövlükdə bölgənin inkişafı və təhlükəsizliyinin gücləndirilməsi baxımından vacib layihələrdən hesab olunur:**

“İnkişaf etmiş dövlətlərin, xüsusən də Avropa ölkələrinin təcrübəsi göstərir ki, iqtisadi inkişafın dayanıqlığı və daha çox sərmayənin cəlb edilməsi, həmçinin nəqliyyat sisteminin təkmilləşdirilməsi, o cümlədən beynəlxalq hava limanlarının istifadəyə verilməsindən asılıdır. Qarabağın və eləcə də Şərqi Zəngəzurun böyük iqtisadi potensialı var. Bu potensialın reallaşması və xüsusən də həmin ərazilərimizdə istehsal ediləcək məhsulların daxili bazara, o cümlədən xarici bazara ixrac edilməsi baxımından hava limanlarına ehtiyac var idi. Digər tərəfdən, region böyük turizm potensialına malikdir. Təbii ki, bu, həmin turizm potensialının reallaşmasına imkan verəcək. Bu infrastrukturlar Azərbaycana gələn turistlərin sayının artması və xüsusən daxili turizmin daha da genişlənməsi üçün yeni imkanlar yaradacaq.

Zəngilan Hava Limanı uzunluğu 3 km, eni 60 metr olan uçuş enmə zolağı, su anbarı və başqa köməkçi tikililərdən ibarət olacaq. Hava limanı 1 saatda 200 sərnişinə xidmət edə biləcək. Hava limanı hər növ təyyarələri qəbul edə biləcək”.

**İsmayıl**

# Kreml Brüsselin vasitəçiliyinə qısqanır

## “Zaxarova Lavrovun tezisləri əsasında hazırladığı mətni heç bir dəyişiklik etmədən hər dəfə təkrarlayır”



**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib ki, Avropa İttifaqının Cənubi Qafqazda fəallığı geosiyasi ambisiyalarla müəyyənləşir. Onun fikrincə, Aİ-nin real istəyinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına heç bir aidiyyəti yoxdur:**

”Deyərdim ki, bu, avropalıların ”psevdo təşəbbüsü”dür. Bu, daha çox utanmadan vasitəçiliyi özününküləşdirməyə bənzəyir, bunun altında heç nə yoxdur. Biz vasitəçi kimi işləyirik və bu iş konkret nəticələr verir, müvafiq olaraq tərəflər də bunu qiymətləndirir. Kimsə vasitəçi olmadan özünü vasitəçi kimi qələmə verirsə, görünür, onlar heç nə təklif etmək iqtidarında deyillər. Lakin burada da özlərinin iştirakını göstərmək istəyirlər. Ümumiyyətlə, belə bir təəssürat var ki, Brüssel diplomatiya vərdişlərini itirib”.

**Zaxarovanın açıqlamasını dəyərləndirən politoloq Elxan Şahinoğlu vurğulayıb ki, Kreml Brüsselin Azərbaycanla Ermənistan arasındakı vasitəçiliyinə qısqanc yanaşır. Moskva hesab edir ki, Avropa İttifaqı Rusiyanı Cənubi Qafqazda sıxışdırmaq istəyir:** ”Zaxarova yenə ”möhürünü” vurub. Xatırladaq ki, Prezident İlham Əliyevin Nikol Paşinyanla Brüsseldə bundan əvvəlki görüşü mayın 22-də baş tutmuşdu. Mariya Zaxarova həmin tarixdə eyni sözləri təkrarlamışdı. Budəfəki cümlələrdə heç bir fərq yoxdur. Göründüyü kimi, Mariya Zaxarova hər dəfə Azərbaycan və Ermənistan liderlərinin Brüssel görüşündən əvvəl və ya sonra eyni açıqlamanı səsləndirir. Bütün açıqlamalarda eyni sözlər yer alır: ”psevdo təşəbbüslər”, ”Rusiyanı qabaqlamaq istəyirlər”, ”Avropa İttifaqının ambisiyaları”, ”Brüsselin məqsədi fərqlidir”. Bu o deməkdir ki, liderlərin Brüsseldə ilk görüşündən sonra Mariya Zaxarova patronu Sergey Lavrovun tezisləri əsasında mətn hazırlayıb. Həmin mətni heç bir dəyişiklik etmədən hər dəfə təkrarlayır. Bu mətn Brüsseli hədəf alsa da, Azərbaycan və Ermənistana da mesaj xarakteri daşıyır. Deyirlər ki, ”əsas vasitəçi Moskvadır, Brüsselə inanmayın, bizimlə ortaq hərəkət edin”.

**İsmayıl**

# Üçtərəfli format nəzərdə tutulmur

## Sərhədlərin delimitasiya və demarkasiyası iki tərəf - Azərbaycan və Ermənistan arasında müzakirə olunur



**Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası üzrə Komissiyanın üçüncü görüşünün keçiriləcəyi yer bilinib. Azərbaycan baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan baş nazirinin müavini Mqer Qriqoryan Belçika paytaxtı Brüsseldə görüşəcək.**

Baş nazir müavinlərinin növbəti görüşü Azərbaycan və Ermənistan liderlərinin görüşündən sonra 1 ay ərzində baş tutacaq. Xatırladaq ki, Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası üzrə Komissiyanın ikinci görüşü dünən Moskvada keçirilib. Ciddi məsələlərdə olmasa da, ümumi məqamlarla bağlı razılaşmaların olduğu bildirilib.

**Politoloq İlqar Vəlizadə “Şərq”ə bildirib ki, Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası üzrə komissiyalar ikitərəfli görüşlər keçirirlər. Analitikin sözlərinə görə, belə təmaslarda üçtərəfli format nəzərdə tutulmur:**

”Kommunikasiyaların açılması, Zəngəzur dəhlizi, sülh sazişi və s. məqamlarla bağlı görüşlərə nəzər salsaq görərik ki, bunlar üçtərəfli formatlarda müzakirə predmetidir. Belə görüşlərdə Rusiyanın baş nazirinin müavini iştirak edir. Bu da üçtərəfli işçi qruplarının mütəmadi görüşlərində müzakirə olunan məsələlərdir. Sərhədlərin müəyyən olunması ilə bağlı görüşlərdə üçtərəfli formatdan söhbət getmir. Çünki sərhədlərin delimitasiya və demarkasiyası iki tərəf - Azərbaycan və Ermənistan arasında müzakirə olunur. Sadəcə olaraq fərqli və ”neytral” məkanlarda görüşərək göstərirlər ki, hər bir vasitəçilik onlar üçün məqbuldur. Əsas odur ki, problemlər həllini tapsın və müsbət nəticə olsun, kimin vasitəçiliyinin önəmi yoxdur. Nəticə o vaxt əldə olunar ki, tərəflər eyni prinsiplər üzərində davamlı görüşlər və müzakirə təşkil etsinlər”.

**İ.Vəlizadə vurğulayıb ki, artıq prinsiplər müəyyən olunub:** ”Yəni Moskva görüşündə Rusiya, yaxud Brüssel görüşündə Qərb ölkələri mövcud prinsiplərə, aparılan danışıqlar mövzusuna müdaxilə etmirlər. Ümumiyyətlə, Ermənistanla sərhəd prosesi uzunmüddətli ola bilər. Qonşu Gürcüstanla problemimiz olmadığı halda, sərhəd xəttinin müəyyənləşməsi onillərdir davam etməkdədir”.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi



# Soydaşlarımızın işi asanlaşacaq

## İki qardaş ölkənin elektron dövlət portalları inteqrasiya edir

**Dünəndən etibarən Türkiyənin "e-devlet" portalı ilə Azərbaycanın "e-gov" portalının inteqrasiyasına başlanılır. Bunu jurnalistlərə açıqlamasında Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev bildirib.**

"İnteqrasiya Türkiyənin Rəqəmsal Transformasiya Ofisi ilə əməkdaşlıq çərçivəsində baş tutub. Bu o deməkdir ki, Azərbaycan vətəndaşı Türkiyəyə getdiyi zaman ondan hər hansı Azərbaycanın dövlət qurumunun verməli olduğu sənəd tələb olunursa, onu "e-devlet"dən və yaxud əksinə, Türkiyə vətəndaşından Azərbaycanda hansısa sənəd tələb olunsa, onu "e-gov"dan əldə edə biləcək", - deyə o qeyd edib. Son zamanlar ölkədə elektron xidmətlər şəbəkəsi xeyli genişlənib. Məsələn, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məxsus "AzInTelecom" MMC-nin yaratdığı Vahid Elektron Xidmətlər Portalına (https://portal.rinn.az/az) daha 3 yeni xidmət inteqrasiya olunub. Bununla bağlı nazirliyin məlumatında qeyd olunur ki, portalda təqdim edilən xidmətlərin sayı 15-ə çatıb. Sonuncu inteqrasiya nəticəsində nazirliyə məxsus "Aztelekom" MMC-nin 2, "Azərpoçt" MMC-nin 1 yeni xidməti portala əlavə edilib. Bunlar "Əvvəlki aylar üzrə aparılmış şəhərlərarası və beynəlxalq danışıqlar üzrə borc", "Telefon (şəhərlərarası danışıqlar) üzrə ödənilmiş qəbzlər" və "Küçə adına və poçt indeksinə görə küçələrin axtarışı" xidmətləridir. Vətəndaş "Əvvəlki aylar üzrə aparılmış şəhərlərarası və beynəlxalq danışıqlar üzrə borc" xidmətindən istifadə edərək adına olan telefon nömrəsi ilə əvvəlki aylar ərzində aparılmış şəhərlərarası və beynəlxalq danışıqlar üzrə borclar haqqında məlumat əldə edə bilər. "Telefon (şəhərlərarası danışıqlar) üzrə ödənilmiş qəbzlər" xidməti vasitəsilə istifadəçi əvvəlcə adına olan şəhərdaxili nömrə və ya nömrələri əldə edir. Daha sonra hər nömrə üzrə ay ərzində zəng edilən nömrələr, zənglərin tarixi, danışıq müddəti, məbləğ və ödəmə qəbzləri barədə məlumat ala bilər. "Küçə adına və poçt indeksinə görə küçələrin axtarışı" xidməti ada uyğun axtarış edərək ölkə üzrə həmin adda küçələrin yerləşdiyi şəhər və ya rayon, orada yerləşən ev nömrələri, küçə şifri və poçt indeksi haqda məlumat almaq imkanı verir. RİNN müxtəlif internet resursları üzərindən vətəndaşlara 57 adda rəqəmsal xidmət göstərir. İndi həmin xidmətlər vahid portalda toplanılır. Portalda təqdim edilən qeydiyyatlı rəqəmsal xidmətlərdən vətəndaşlar "ASAN Login" vasitəsilə qeydiyyatdan keçərək yararlana bilərlər. Həyata keçirilən bu cür layihələr vətəndaşların məlumatlara daha asan çıxışını təmin edir.

**Məsələ ilə bağlı "Şərq"ə danışan Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, hüquqşünas Əliməmməd Nuriyev qeyd etdi ki, qardaş ölkədə yaşayan, işləyən, ailə qurmuş soydaşlarımız üçün belə bir imkanın yaradılması müsbət haldır:**

- Əlbəttə, iki qardaş ölkənin elektron dövlət portallarının qarşılıqlı şəkildə fəaliyyət göstərməsi, Azərbaycan vətəndaşları barədə məlumatların Türkiyə dövlət orqanlarında, eyni ilə Türkiyə vətəndaşlarına aid zəruri məlumatların Azərbaycan dövlət orqanlarında olması müsbət haldır. Bu, hər iki ölkə vətəndaşlarını əlavə işlərdən, sənəd təqdim etməkdən xilas edir. Məlumdur ki, Azərbaycanda "elektron dövlət" - "elektron hökumət" proqramı uzun illərdir fəaliyyət göstərir. Bu, dövlət orqanlarında elektron sənəd mübadiləsinin təşkilini, elektron sənəd dövriyyəsinin tətbiqi sənədlərin hazırlanması və emalına sərf olunan əməyin və vaxtın azalmasını, idarəçilikdə qərarların qəbul edilməsini, icra intizamının yüksəldilməsini və nəzarət mexanizminin sadələşməsini, əhaliyə xidmətin operativliyini, dövlət və özünüidarəetmə orqanlarının fəaliyyəti haqqındakı informasiya və xidmətlərə əlyetərliliyi, tabeçiliyində olan və digər təşkilatlarla əlaqələrin sürətləndirilməsini təmin etməyə imkan verir. Biz "elektron hökumətin" daha geniş, operativ fəaliyyət növünü ASAN Xidmət üzərindən görürük. Bunun özü də vətəndaşlara qısa zamanda, elektron portallar vasitəsilə operativ xidmətlərin göstərilməsinə çox müsbət nümunədir. Xatırladım ki, Azərbaycanın Səyyar ASAN Xidməti bu günlərdə Türkiyədə 100-dən artıq vətəndaşımıza xidmət göstərir. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin məlumatında qeyd olunur ki, 2022-ci il 30 avqust tarixindən 04 sentyabr tarixinədək Türkiyənin Samsun şəhərində Aerokosmik və texnologiya festivalı (TEKNOFEST) günləri çərçivəsində Türkiyədə yaşayan azərbaycanlılara dövlət xidmətlərinin çatdırılması məqsədilə Səyyar ASAN xidmət avtobusu vasitəsilə xidmət göstəriləcək. Ölkə xaricində ilk dəfə gerçəkləşən Səyyar ASAN xidmət Dövlət Agentliyinin təşkilatçılığı, Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi və "ABB" ASC-nin maliyyə tərəfdaşlığı ilə təşkil olunur. Təşkil edilən xidmətdən yararlanmaq üçün vətəndaşlarımız mütləq "Teknofest" ərazisinə daxil olmaq hüququ verən qeydiyyatdan keçməlidirlər. Qeydiyyat üçün link: https://www.t3kys.com/tr/teknofest/visitor/apply/ Eyni zamanda Türkiyədə yaşayan Azərbaycan vətəndaşları https://seyyarasan.e-gov.az/ linkinə daxil olaraq özünə aid məlumatları (şəxsiyyət vəsiqəsi məlumatları, mobil nömrə və elektron poçt ünvanı) və almaq istədikləri xidməti qeyd edərək müraciətlərini öncədən gerçəkləşdirə bilərlər. Səyyar ASAN xidmətin həyata keçirilməsinin əsas məqsədi dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmini və vətəndaş məmnunluğuna nail olunmasıdır. Səyyar ASAN Xidmətin fəaliyyəti iki ölkənin elektron dövlət portallarının inteqrasiyası üçün ilk addım sayıla bilər. Bu, uğurlu başlanğıcdır.

*"Qardaş ölkədə yaşayan, işləyən, ailə qurmuş soydaşlarımız üçün belə bir imkanın yaradılması müsbət haldır"*

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Avrasiya İqtisadi İttifaqına şərtlə qatılmaq olar

## Bunun üçün Rusiya üzərinə götürdüyü öhdəlikləri tamamilə yerinə yetirməlidir




*"Qısa müddətdə Ermənistanın və separatçı rejimin silahlı qruplaşmaları Qarabağı tərk etməlidir. İlin sonuna kimi qondarma rejim ləğv olunmalıdır. Ermənilərin yaşadığı bütün ərazilər tədricən Azərbaycanın idarəsinə keçməli, ermənilər Azərbaycan cəmiyyətinə inteqrasiya olmalıdır"*

**Azərbaycanın Avrasiya İqtisadi İttifaqı (AİI) ilə dialoqunun hər hansı bir formatda inkişafı bütün region üçün hiss olunan effekt verər. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib. XİN rəsmisi qeyd edib ki, Moskva Azərbaycan baş nazirinin Avrasiya İqtisadi İttifaqının hökumət sədrlərinin iclasında iştirakını müsbət qiymətləndirir:**

"Fikrimizcə, Bakı ilə AİI-nin əməkdaşlıq potensialı olduqca yüksəkdir. Biz bu cür əməkdaşlığın böyük perspektivini götürürük. Eləcə də, hesab edirik ki, bu əməkdaşlıq Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesinin xeyrinə olacaq". Zaxarova həmçinin, vurğulayıb ki, Rusiya Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının açılması məqsədilə Bakı və İrəvanla əyani işi davam etdirir. O bəyan edib ki, Azərbaycan-Ermənistanın arasında bütün Cənubi Qafqazın təhlükəsizliyi və iqtisadi rifahına xidmət edəcək konkret marşrutlar üzrə paket həll variantı razılaşdırılır.

**Zaxarovanın açıqlamasını "Şərq"ə dəyərləndirən politoloq Natiq Miri bildirib ki, burada söhbət Azərbaycanın Avrasiya İqtisadi İttifaqında müşahidəçi statusunda iştirakından gedir. Analitik xatırladıb ki, Azərbaycanın baş naziri AİI-nin sonuncu tədbirində iştirak edib:** "Rusiya rəsmisi mesaj verir ki, əgər Azərbaycan Avrasiya İqtisadi İttifaqının tədbirlərinə qatılarsa, əməkdaşlığı sıxlaşdırarsa, Moskva Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesində öz yardımını əsirgəməz. Bu, bir növ Kremlin bazarlıq predmetidir. Ancaq düşünürəm ki, hazırda bu məsələ o qədər də qorxulu deyil. Rusiya regionda əvvəlki hegemonluğunu təmin edəcək güc və qüdrətdən uzaqdır. Təkcə regionda deyil, qlobal səviyyədə də nüfuzuna ciddi zərbə dəyib. Rusiya Ukrayna bataqlığında çapalayır. Qərb dünyasının, xüsusilə ABŞ-ın Rusiyanı tamamilə tükəndirmək, bütün enerjisinin xərclənməsinə nail olmaq siyasəti nəticə verməkdədir. Rusiya hərbi baxımdan məğlub durumdadır və müharibədə Ukraynanın xeyrinə ciddi dönüş nöqtəsi yaranmaqdadır. Bu gedişlə Kremldə Vladimir Putinin dayaqlarının laxlayacağı şübhə doğurmur. Zəif Rusiyanın fonunda isə narahatlığa əsas yoxdur. Bir sıra şərtlərlə Avrasiya İqtisadi İttifaqında müşahidəçi statusda iştirak etmək olar. Bunun üçün Rusiya üzərinə götürdüyü öhdəlikləri tamamilə yerinə yetirməlidir".

**N.Miri vurğulayıb ki, qısa müddətdə Ermənistanın və separatçı rejimin silahlı qruplaşmaları Qarabağı tərk etməlidir. İlin sonuna kimi qondarma rejim ləğv olunmalıdır**. Ermənilərin yaşadığı bütün ərazilər tədricən Azərbaycanın idarəsinə keçməli, ermənilər Azərbaycan cəmiyyətinə inteqrasiya olmalıdır. Eyni zamanda sərhədlərin müəyyənləşməsi, kommunikasiyaların açılması, Zəngəzur dəhlizinin reallaşması və ən nəhayət, böyük sülh sazişinin imzalanmasına Rusiya ciddi dəstək verməlidir. Əgər sülh sazişi imzalanarsa, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini qəbul edərsə, ölkəmizə qarşı iddialardan birdəfəlik vaz keçərsə, Azərbaycan AİI-də müşahidəçi statusunda təmsil oluna bilər. Bu, Azərbaycandan heç nə almayacaq. Əksinə, postsovet məkanında digər ölkələrlə münasibətləri daha da gücləndirəcək. Lakin sadaladığımız şərtlər reallaşmadığı təqdirdə Azərbaycan Rusiyanın nüvəsi olduğu bir təşkilatda bərabər hüquqlu üzv ola bilməz. Nəzərə alaq ki, getdikcə mövqeləri zəifləyən bir Rusiya var. Dünyanın yenidən qurulmasında Rusiyanın hegemon mövqe tutacağını düşünmürəm. Bu, üfüqdə belə görünmür".

**İsmayıl Qocayev**




# "Sülh müqaviləsinin imzalanacağına dair gözləntilərimiz var"

Fuad Abbasov: "Bizim üçün ən böyük qazanc Zəngəzur dəhlizinin təsdiqlənməsi və rəsmi İrəvanın Azərbaycanın torpaq bütünlüyünü və sərhədlərini tanıması ola bilər"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsseldə işgüzar səfərdədir.**

Məlumata görə, dövlətimizin başçısı İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü başlayıb.

**Prezident İlham Əliyevin Brüssel səfərindən gözləntilərlə bağlı siyasi şərhçi, jurnalist Fuad Abbasov "Şərq"ə deyib ki, Brüssel görüşü bizi Ermənistan tərəfinin ərazi bütövlüyümüzü və sərhədlərimizi tanıyacağına ümidləndirir:** "Sülh müqaviləsinin imzalanacağına dair gözləntilərimiz də var. Bu, ilk növbədə Ermənistanın özü üçün vacibdir. Bizim üçün önəmli olan digər məqam isə 10 noyabr 2020-ci il tarixində imzalanan Bəyanata uyğun olaraq, Zəngəzur dəhlizinin açılmasıdır.

Çünki bu yol Laçın dəhlizinin əvəzində ermənilərdən tələb olunan siyasi qərardır. Bu görüşdə bizim üçün ən böyük qazanc Zəngəzur dəhlizinin təsdiqlənməsi və rəsmi İrəvanın Azərbaycanın torpaq bütünlüyünü və sərhədlərini tanıması ola bilər. Qarşı tərəf bu mövzular haqqında bizə razılıq versə, Brüssel səfəri nailiyyətlə başa çatmış olar".

*Siyasi şərhçi xatırladıb ki, qarşı tərəf bu cür beynəlxalq görüşlərdə hər zaman geri addım atıb:* "Belə addımlar onların diasporunun, daxili ictimaiyyətinin və ya Rusiyanın tələbi ilə atılıb. N.Paşinyan siyasi iradəsini toplayıb tələblərə qarşı öz mövqeyini orataya qoysa, həm Ermənistan, həm də bölgə üçün çox böyük addım atmış olacaq. Əgər tələblərimizə əməl etməsə, dövlətimiz xarici siyasətini eyni şəkildə davam etdirərək, ərazi bütövlüyümüzün Ermənistan tərəfindən tanınmasına nail olmalıdır".

**Çimnaz Şahlar**

**Elan**

Bakı şəhəri, Yasamal rayon sakini Namazova Ülviyyə Mahir qızının adına 13.05. 2014-cü il tarixdə verilmiş sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Rəsulov Müşfiq İdris oğlunun adına "AAAF-İnşaat" MMC tərəfindən verilmiş bina 9, mənzil 53-ün E/0113 №-li Müqavilə sənədi itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2489

# Sadəcə israfçılıq...

## 35 ton süd məhsulunun məhv edilməsi dəhşətdir



**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) istifadəyə yararsız 35 tona yaxın süd məhsullarını məhv edib. Bu barədə qurumun özü məlumat yayıb.**

"Sun Food" MMC-nin Agentliyə müraciəti əsasında istehlaka yararsız və istifadə müddəti bitmiş 34.29 ton çəkidə müxtəlif növ süd və süd məhsulları "Təmiz Sumqayıt-Kənan" MMC-yə məxsus tullantıların zərərsizləşdirilməsi poliqonunda məhv edilib.

AQTA əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi üçün ardıcıl tədbirlərini davam etdirir və istehlakçı hüquqlarının pozulmasına yönəlmiş qanunsuz halların qarşısının alınması istiqamətində müvafiq addımlar atır.

***Vaxtı keçməmiş bu məhsulları daha ucuz qiymətə satışa çıxarmaq olardı***

**Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri, sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova məhv edilən süd məhsulları barədə öz fikirlərini "Şərq"ə açıqlayıb. Mütəxəssisin sözlərinə görə, istehlaka yararsız məhsulların məhv edilməsi doğru olsa da, məhsulların miqdarının 35 tona yaxın olması adi hal deyil:** "Bu, məhsulların israfıdır. Dünyada böhranların baş verdiyi zamanda süd məhsullarının məhvi onların ərsəyə gəlməsi üçün çalışan işçilərin əməyinin, sərf olunan maddi vəsaitlərin heçə sayılması deməkdir. Bu kimi halların qarşısını öncədən almaq olar. İnkişaf etmiş ölkələrdə məhsullar tələbə uyğun istehsal olunur.

Belə durumlar yalnız məhsulun saxlanılma müddəti bitdikdə və ya doğru şəkildə saxlanılmadıqda baş verir. Saxlanılma müddəti sona yaxınlaşdıqca kampaniyalar hazırlanır və ya endirimli qiymətlərlə istehlakçılara təqdim olunur. Belə kampaniyalar təşkil olunsa, insanlar daha ucuz qiymətə istehlaka yararlı məhsullar əldə edə bilər. Bu, sadəcə, süd məhsullarına aid olmamalıdır.

Bütün qida məhsullarında diqqətə alınmalıdır. Belə hallar hələ də ölkəmizdə tənzimlənməyib. Yalnız bayram ərəfələrində bu tip kampaniyalara rast gəlinir. Lakin nəzərə almaq lazımdır ki, qida məhsulları gündəlik istehlak olunan məhsullar sırasındadır.

Davamlı şəkildə məhsulların son istifadə tarixinə uyğun olaraq sözügedən kampaniyalar keçirilməlidir".

**Çimnaz Şahlar**

# Artıq proses yekunlaşmaq üzrədir

## Tələbə köçürmələri ilə bağlı çoxlu müraciətlər var



**Tələbələrin ölkə daxili və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi qış və yay tətili dövründə həyata keçirilir. Bu ilin yayı üçün köçürülmə prosesinə iyulun 25-də başlanılıb və sənəd qəbulu iyulun 31-də yekunlaşıb.**

Tələbələrin köçürülmə prosesi ilə bağlı "Şərq"ə danışan təhsil eksperti Elçin Əfəndi bildirib ki, burda tələbənin ali təhsil müəssisəsinə qəbul olunduğu bal əsas meyar kimi götürülür: "Eyni zamanda həmin tələbənin akademik göstəriciləri müvafiq olaraq universitetə borcunun olmaması haqqında arayış başlıca tələbdir. Hər hansısa ali, yaxud orta, eləcə də orta ixtisas təhsil müəssisəsi müvafiq dövlət qurumunun tabeliyindədirsə, həmin dövlət qurumunun razılıq məktubu da önəmli faktordur. Bütün bunlar yerində olduğu halda tələbənin köçürülməsinə icazə verilir".

**E.Əfəndinin qənaətincə, xaricdə təhsil alan bütün tələbələrin ölkəmizin təhsil müəssisələrinə transfer olunmasına şərait yaradılmalıdır:** "Adətən yalnız dövlət xətti ilə qəbul olunanların transferinə icazə verilir. Yaxud da müvafiq olaraq attestatla xaricdə təhsil alanların ölkəmizdəki ali təhsil müəssisələri transferinə icazə verilir. Bu, bir yandan başadüşüləndir. Çünki onlar dövlət proqramı ilə, yaxud da müvafiq qanunvericiliyin tələbi əsasında həmin ali təhsil müəssisəsinə qəbul olunmayıblar. Bir növ Elm və Təhsil Nazirliyi bu amili nəzərə alaraq onların köçürülməsinə icazə vermir. Bəzi şəxslər var ki, onlar öz hesablarına attestatla deyil, qanuni formada, müxtəlif beynəlxalq dərəcələr əsasında ali təhsil müəssisəsinə qəbul olunublar. Onların köçürülməsində də bəzən müəyyən problemlər yaşanır. Növbəti köçürülmə prosesində bu amillər mütləq nəzərə alınmalıdır". Təhsil eksperti diqqətə çatdırıb ki, bu il də tələbələrin transferi ilə bağlı həm bakalavr, həm də magistr səviyyəsində çoxlu müraciətlər var: "Artıq proses yekunlaşmaq üzrədir. Yəqin ki, qarşıdakı bir həftə ərzində Elm və Təhsil Nazirliyi tərəfindən köçürülmə üçün müraciət edən tələbələrin nəticələri açıqlanacaq".

**Günəş Mərd**

# Səfirin bahalaşma paylaşımı rezonans doğurdu

## Rəşad Həsənov: "Bazarımız lazımi qədər liberal olmadığı üçün bahalı xidmətləri istehsal edirik"





**Azərbaycanın keçmiş xarici işlər naziri, hazırda Bosniya və Hersoqovinadakı səfiri Vilayət Quliyev öz sosial şəbəkə hesabında maraqlı paylaşım edib. O, Bakıdakı kafe-restoranlarda qiymətlərin astronomik həddə olmasından şikayətlənib.**

Eks-nazir bunları yazıb: "Varşavanın mərkəzində beş seçimdən birini edib 10 manata belə müxtəlif çeşidli səhər yeməyi sifariş vermək mümkündür. Üstəlik kofe, yaxud çay da bu hesaba daxildir. Bakının mərkəzində isə 10 manata yalnız iki fincan çay içmək olar. Düzdür, yanında bir mikroskopik ölçülü kurabiyə də verirlər. Sonra da şikayətlənirik ki, ölkəmizə turistlər az gəlir".

Səfirin sosial şəbəkələrdə çoxsaylı oxucuları Vilayət Quliyevi dəstəkləyib. Şərhlərdə Bakının restoran və kafelərindən verilmiş "od tutub yanan" qəbzlər dərc etməyə başlayıblar.

Əslində sabiq nazirin iradı yeni deyil, mütəmadi olaraq belə etirazlarla rastlaşmaq mümkündür. Görünür, paytaxtda yerləşən "üstü bəzək, altı təzək" məkanlarda qiymətlərin fantastik dərəcədə bahalaşması artıq məmurları da dilə gətirib.

**Məsələ ilə bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Rəşad Həsənovun qənaətincə, rəsmilərin dilindən gerçəkliyin səsləndirilməsi yaxşı haldır:**

"İqtisadi siyasət ölkədə liberal bazar iqtisadi mühitinin formalaşması imkanlarını məhdudlaşdırdı. Təklifin inhisarlaşması prosesi sürətləndi. Bazarımız lazımi qədər liberal olmadığı üçün bahalı xidmətləri istehsal edirik. Təklif bazarında iştirakçı sayı azdır.

Nəticədə mal və xidmətlərin təklifçiləri qiymətləri qaldırırlar. Azərbaycan xarici turistlər üçün bahalı ölkəyə çevrilir. Yerli istehlakçıların yararlandığı əksər xidmətlərin əlçatanlıq səviyyəsi aşağı düşür.

Minimum orta aylıq əməkhaqqına və alıcılıq gücünə malik ölkədə belə qiymətlərin mövcudluğu "steykholder" (oxu: arzuolunan imkanlar ) formalaşdırmır. Hökumət ciddi addımlar atmalıdır. Müəyyən formada sahibkarlıq subyektlərinin bazara sərbəst daxil olması təmin edilməlidir".

Ekspert bildirib ki, qiymət artımlarını şərtləndirən digər faktor korrupsiya və rüşvətdir: "Qeyri-qanuni ödəmələr məhsulun maya dəyərində müəyyən formada özünü göstərir. Müxtəlif qurumların təmsilçilərinin kafelərdən, restoranlardan, mağazalardan aldıqları rüşvəti hər bir Azərbaycan vətəndaşı ödəməli olur. Liberal bazar iqtisadiyyatına keçməliyik. Hər kəsə sərbəst fəaliyyət göstərmək imkanı yaradılmalıdır.

Dövlət əmlakının özəlləşdirilməsində ədalətlilik, şəffaflıq prinsipi qorunmalıdır. Kiçik, orta sahibkarlığın inkişafı ilə əlaqədər ciddi mövqe ortaya qoyulmalıdır.

Hökumətin əlində kifayət qədər alətlər var. Hansı sahələrdə təklif qıtlığı mövcuddursa, onda təklif mexanizmlərindən istifadə etmək lazımdır. Orta və uzunmüddətli dövrdə Azərbaycanda bazar qiymətlərinin optimallaşması mümkündür.

Vətəndaşlarımız da bu xidmətlərdən istifadə zamanı nisbətən üstün mövqeyə malik ola bilərlər".

**Aygün Tahir**

# "Nar" yay kampaniyasına möhtəşəm festivalla yekun vurdu




**"Nar" yay kampaniyası çərçivəsində əyləncə dolu festival ilə yaya yekun vurub.**

İlkin olaraq, bölgələrdən başlayan yay festivalı Lənkəran, Sumqayıt, Quba və Mingəçevirdən sonra paytaxt Bakı ilə yekunlaşdı. Çox sayda iştirakçının əyləndiyi gecədə Samirə Əfəndi, Azad Şabanov, Hiss, Rauf, Cin ve Dj Kənan çıxış ediblər.

Paralel olaraq, sosial mediada da istifadəçilər festivalın rəsmi simaları seçilmiş influenserlərdən (İradə Qədirova, Samirə Əfəndi və Cəfər Nəcəfov) yenilikləri öyrənir və maraqlı müsabiqələrdə iştirak edərək "Nar"dan dəyərli hədiyyələr qazanırdılar.

# "Bəy bulağı" hazırdır, gələn il başqası da inşa olunacaq

## Zəlimxan Məmmədli: "Mən istirahət vaxtlarımı kabab yeməklə keçirmirəm"

**"Borçalı" İctimai Birliyinin sədri Zəlimxan Məmmədlinin feysbuk profilində paylaşdığı məlumat ictimaiyyətdə maraqla qarşılanıb. Birlik rəhbəri İsmayıllı rayonunda bulaq tikintisini əks etdirən fotoları öz səhifəsində paylaşaraq, gördükləri iş barədə qısa məlumat verib. Z.Məmmədli qeyd edib ki, düzəltdikləri bulaq Hacıhətəmli kəndindən Göyçay çayı istiqamətində Kurdeldarbəyli kəndi səmtində iki dağın arasında yerləşir. Bulağın adı da diqqət çəkib. Birlik sədrinin sözlərinə görə, su çeşməsi məxsusi olaraq "Bəy bulağı" adlandırılıb.**

Daha ətraflı məlumat almaq üçün hazırda İsmayıllıda olan "Borçalı" İctimai Birliyinin sədri Zəlimxan Məmmədli ilə əlaqə saxladıq. O, bulağın tamamlanma mərhələsində olduğunu və sentyabrın 1-də açılışının ediləcəyini söylədi. Z.Məmmədli ötən il belə bir bulağın tikilməsi ilə bağlı söz verdiyini dedi: "Sabah, yeni bulağın açılışında daha ətraflı məlumat verəcəyik. Keçən il söz vermişdim. Türk əxlaqında söz vermək dindən, imandandır. Əgər söz verdinsə, ya yerinə yetirməlisən, ya da sözünü geri götürməlisən. Ötən ilin avqust ayında, mərhum Əbülfəz Elçibəyin haqq dünyasına qovuşduğu günə az qalmış verilmiş sözümüz var idi. Bura köhnə, baxımsız bulaq yeriydi. Qərara gəldik ki, yeni bulaq inşa edək. Sözümüz havada qalmadı və reallaşması üçün əlimizdən gələni etdik. İndi bulağın yekunlaşma işlərini görürük. Sentyabrın 1-də açılışını edəcəyik. Açılış da simvolik olacaq, hay-küy yaratmaq niyyətimiz yoxdur. Sadəcə öz ətrafımız, yaxınlarımız, dost-tanışın iştirakı ilə 5-10 dəqiqəlik açılış mərasimi təşkil ediləcək. Niyə "Bəy bulağı"nı tikdik, Azərbaycan insanının gücü-qüdrəti hara qədərdir və bu gücdən istifadə olunurmu? Gələcək Azərbaycanın inşa olunması millətinmi, yoxsa yadların boynundadır? Açılışda bunlarla bağlı mesajlarımızı verəcəyik. Biz xeyir iş görürük. Bulağı, bayrağı, adını görənlərin sevincini, qürurunu açıq-aşkar görürük".



*"Bulaq inşa etdiyimiz kəndlə heç bir qohumluğum, tanışlığım yoxdur. Azərbaycanın ayağımızı qoyduğumuz hər torpaq qarışı Vətəndir, yurddur"*

**Z.Məmmədli qeyd edib ki, "Bəy bulağı"nın özü bir əzəmətdir:** "Biz bəyliyimizə, özümüzə qayıtmalıyıq. Bu əməlimiz də özünüdərkdir. Vətəndaş təşəbbüskarlığının motivasiyasıdır. Heç kimin sağolunu, minnətini istəmirik. Növbəti ildə daha bir bulaq inşa edəcəyik. Mən istirahət vaxtlarımı kabab yeməklə keçirmirəm. Həmişə yaradıcılıqla, nələrsə etməklə vaxtımı keçirirəm. Bu da onlardan biridir. Bulaq inşa etdiyimiz kəndlə heç bir qohumluğum, tanışlığım yoxdur. Azərbaycanın ayağımızı qoyduğumuz hər torpaq qarışı Vətəndir, yurddur. Sevilməli və qulluq görməlidir. Bizim işimizin də fəlsəfəsi budur. Usta Amilin rəhbərliyi ilə bulağı mən, ailəm, nəvəm Aqil, dostum inşa etmişik və gözəl də bir iş ərsəyə gəlib. Onu da deyim ki, bulağın suyu möhtəşəmdir. Həkim kimi bunu deyirəm. Xarab olan sular insana köp verir, narahat edir, digər fəsadları olur. Amma bu bulağın suyu çox gözəl və rahatdır. Bu sudan dadan əl çəkməyəcək. Samovarımız da yanımızdadır, hərdən çay dəmləyirik".

**İsmayıl Qocayev**

# "Kəramət Natiq Rəsulzadədən daha artıq xalq yazıçısıdır"

## Şahbaz Xuduoğlu: "Xalq yazıçısı sosial şəbəkələrin insanların həyatına necə nüfuz etdiyini görmürsə, deməli, o, zülmətdədir"

**Xalq yazıçısı, Əməkdar incəsənət xadimi Natiq Rəsulzadə sosial şəbəkə istifadəçilərinin hücumuna məruz qalıb. Günah özündədi, desək, bəlkə biz də hücumlara məruz qaldıq, onun pərəstişkarları, oxucuları tərəfindən. Amma və lakin "xalq yazıçıcı" titulu daşıyan şəxs deyəcəyi sözü yüz ölçüb bir biçməlidir.**

Xalq yazıçısı hansısa media orqanına müsahibə verirsə, bunu geniş kütlənin oxuyacağını da gözardı etməməlidir. Ola bilər, cəsarətinə güvənib, "bu, mənimn şəxsi fikrimdir, düşündüyümü, doğru bildiyimi söyləyirəm", desin. O zaman hücumlara da hazır və nazır olmalıdır. Bir tərəfdən baxanda, hazırda elə insanlar var ki, onları cəmiyyətin fikri, rəyi düşündürmür. Bel bağladıqları məlum dayaqları var ki, ona arxayındılar. Məsələn, Xalq yazıçısı Çingiz Abdullayev də hərdən sözləri çaşdırır. Fikrini ifadə etməkdə çətinlik çəkir və baş-ayaq sözlər ortaya çıxır. Sonra da umu-küsü edir ki, cümlə kontekstdən çıxarılıb, belə demək istəməmişəm, sözlərim düzgün anlaşılmayıb və sair. Qınamaq da olmur. Rusdillidi. Beynindəkiləri, ürəyindəki sözləri səhv tərcümə etməsi mümkündür. Natiq Rəsulzadə də eyni situasiyadadı. Belə deyirlər də: rus dilində düşünüb, Azərbaycan dilində danışır. Sinxron tərcümə də həmişə uğurlu alınmır.

Bu dəfə Xalq yazıçısı Natiq Rəzulzadə bu ilin birinci yarısında elmi müəssisə və təşkilatlarda və ali təhsil müəssisələrində keçirilmiş dissertasiya müdafiələrinə dair açıqlanan məlumatlara, habelə bu məsələdə səsləndirilən rüşvət iddialarına münasibət bildirərkən "ağır konuşub". Cavabında "Siz sosial şəbəkələrə də çox inanmayın. Mən də sosial şəbəkələrdə varam. Sosial şəbəkələr kütlədən ibarətdir. Oradan 95 faiz səviyyəsiz, axmaq çıxırsa, onun yalnız 5 faizi ağıllı adam olur. Belə olanda həmin o 95 faizin sözünə niyə baxırsınız? Hansı ki, onlar deyir, bu, rüşvətlədir", deyə bildirib. Görürsünüz, yenə baş-ayaq cümlələr. "95 faiz səviyyəsiz, axmaq" nə deməkdir, "onun yalnız 5 faizi ağıllı adam olur", nə demək?!. Yenə də bunu xalq yazıçısının tərcümə işini yaxşı bilməməsinə keçirik. Amma sosial şəbəkə istifadəçiləri xalq yazıçısına bu təhqiri keçməyib. Və dünəndən N.Rəsulzadənin ünvanına olmazın hədyanlar səslənir. Hətta qələm dostları - həmkarları da onu yamanlayır.





*"Çıxın küçəyə, qarşınıza çıxanlardan soruşun, Natiq Rəsulzadəni tanıyan varmı? Tanımayacaqlar. Onun Azərbaycan dilində bir əsərini belə bu xalq oxumayıb"*

**"Qanun" Nəşrlər Evinin direktoru, naşir Şahbaz Xuduoğlu "Şərq"ə açıqlamasında xalq yazıçısının kobud səhvə yol verdiyini dedi:**

- Xalq yazıçısı deyiləndə Mövlud Süleymanlı yada düşür, Əkrəm Əylisli, Sabir Əhmədov, İsa Muğanna (Allah rəhmət eləsin), İsmayıl Şıxlı... (Sabir Rüstəmxanlı - M.R.) yada düşür. Mənim üçün Seymur Baycan daha artıq xalq yazıçısıdı, nəinki Natiq Rəsulzadə. Qan Turalı, İlkin Rüstəmov xalq yazıçılarıdır, amma titulsuz. Mən Kəraməti Natiq Rəsulzadədən daha artıq xalq yazıçısı hesab edirəm. Çünki Kəramət daha artıq xalqın içindədi, pis və ya yaxşı formada. Azərbaycan xalqının Natiq Rəsulzadə adlı xalq yazıçısı yoxdur. Çıxın küçəyə, qarşınıza çıxanlardan soruşun, Natiq Rəsulzadəni tanıyan varmı? Tanımayacaqlar. Onun Azərbaycan dilində bir əsərini belə bu xalq oxumayıb. Xalq yazıçısı o adama deyərlər, hansı ki xalqın dərdindən danışsın. N.Rəsulzadə bir dəfə deyib ki, səhiyyəmiz niyə bərbad gündədi? Bir dəfə deyibmi ki, niyə bu xalqa qaz limitlə verilir? Nə bilim, metro niyə yaxşı işləmir? Axı bu xalqın onun "axmaq" adlandırdığı 95 faizi metrodan istifadə edir.

*Ş.Xuduoğlu bildirdi ki, "Qanun" Nəşriyyatı N.Rəsulzadənin kitabını nəşr edib, amma:*

- Biz onun imza gününü də keçirmək istəmişik, heç kim gəlməyib. Bilirsiz, təəssüf ki, bizim ölkədə vəziyyət belədir; fəxri adı verirlər, amma ünvanı səhv salırlar. N.Rəsulzadənin sosial şəbəkə istifadəçiləri barədə səsləndirdiyi fikrə gəlincə, bu, cavabı özündə olan məsələdi. N.Rəsulzadə sosial şəbəkələrin, internet resurslarının insanların həyatına necə nüfuz etdiyini görmürsə, deməli, o, zülmətdədir. Heç nə görmür. Belə xalq yazıçısından bundan başqa nəsə gözləməyinə də dəyməz, ona baş qoşmaq da lazım deyil.

**Məlahət Rzayeva**